# MƏQALƏLƏR:

## Yaşar Qarayev: yaxından və uzaqdan – Rahid Ulusel




*Ötən yüzilliyin son yarısı estetik-tənqidi fikrimiz üçün həm də belə bir cəhəti ilə əlamətdardır: bu fikrin yüksəldiyi ən müasir, peşəkar elmi yetkinlik, topladığı tarixi təcrübə ona imkan verdi ki, milli ədəbiyyatın o təcrübəsini daha vüsətli və çevrəli nəzəri ümumiləşdirmələrlə, daha sistemli, vahid və bütöv bədii, fəlsəfi, ictimai kontekstdə öyrənsin. Elmi prinsiplərin mübarizələrdə saflaşıb büllurlaşdığı, tənqidi mübahisələrdən nəzəri yekunlar, qənaətlər mərhələsinə keçidin baş verdiyi və sabitləşdiyi bu dövrdə bütünlükdə tənqiddə həm ayrı-ayrı klassiklərin, həm də klassik bədii mərhələlərin, ədəbi metod, təmayül və cərəyanların canlı, dinamik, monoqrafik portretini göz önünə gətirən əsərlər meydana çıxdı. Bu sahədəki tədqiqlərin orijinal istiqamətinin yaradıcısı – çoxcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin baş redaktoru və əsas müəlliflərindən biri, Əməkdar Elm Xadimi, Dövlət mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Yaşar Qarayev idi…*

Yaşar Qarayevin ilk və son kitablarına nəzər salanda tədqiqatçının özünün də dünyagörüşünün təkamülünü izləmək mümkündür. Əvvələn, bu dünyagörüşü Azərbaycan mütəfəkkirlərinin (xüsusilə Mirzə Fətəli Axundzadənin və Mirzə Cəlilin), eləcə də ədəbi tənqid və nəzəriyyəmizin təcrübəsi və onu yaxın dövrdə təmsil edən alimlərimizin – Məmməd Arifin, Məmməd Cəfərin, Cəfər Cəfərovun irsi zəminində formalaşıb. Heç təsadüfi deyil ki, Yaşar Qarayev o mütəfəkkirlərin ən yaxşı tədqiqatçılarından sayılır və özünəqədərki tənqidçi nəslinin bu üç nümayəndəsi (onların həm üslubu, həm şəxsiyyəti) haqqında da çox qiymətli portret-oçerklər yazmışdır. Sonralar sınaqdan uğurla çıxacaq orijinal, bənzərsiz məntiqi və obrazlı təhlilin təməli hələ "Faciə və qəhrəman"la qoyulur. Problemin özəyinə varan, onu bütün qatları ilə göstərən bir təhlil yolu tənqidçinin yaradıcılığında tədriclə formalaşmışdır. Fundamental tədqiqat metoduna da o, mərhələ-mərhələ yiyələnmişdir. Son fikri dərin, analitik miqyaslı araşdırmalardan sonra bəyan etmək müdrikliyini də o, öz ağsaqqal sələflərindən mənimsəyə bilmişdir.

Yaşar Qarayevin istedadı ictimai-ədəbi fikrimizin inkişafının elə bir çağında yetişdi ki, bu dövrdə (bu öz mahiyyətinə görə XX əsrin əvvəllərinə bənzəyir!) Azərbaycan mədəniyyətinin daha dərindən, hərtərəfli öyrənilməsi prosesində bir mərhələ başlayırdı. Bu, alimin dünyagörüşündə və elmi yaradıcılığında da baş verdi. Tənqidçi milli ədəbiyyatın öyrənilmiş və öyrənilməmiş qatlarının yeni tədqiqinə başladı. Əl vurulmuş, lakin kifayət qədər dərindən araşdırılmamış, yaxud yanlış şərh edilmiş məsələlərin həllinə cəsarətlə, müasir estetikanın, ədəbiyyatşünaslığın yüksək nailiyyətləri baxımından yanaşdı. O, nəzəriyyə ilə silahlandıqca nəzəriyyəsizliyi, tənqid prinsipiallığını, qələminin publisist kəsərini artırdıqca üzdəngetmənin karagəlməzliyini görür, üslubu zənginləşir, fərdiləşir, dilimizin bütün imkanlarını tənqidi fikrin kəsəri xidmətinə səfərbər edirdi.

Yaşar Qarayev təhlil etdiyi sənət əsərinin bədii hüceyrəsinə, fəlsəfi mahiyyətinə varır, tarixi-müqayisəli, analitik təhlillə daxilində güclü məntiq gizləyən paradoksal təhlilin vəhdətinə nail olduğu üçün (bu vəhdətin misilsiz bəhrəsini Azərbaycan realizminin mərhələlərinə həsr olunmuş tədqiqatlarında görürük) onun gözlənilməz tutuşdurmaları təbii səslənir – bu yol həmişə aforizm timsallı üsluba meyllidir.

Tənqidçi alimin yaradıcılığında güclü pafos, ehtizazlı patetika var, ancaq bu pafosun vətəndaşlıq məğzi, bu patetikanın sənətkarlıq əsası da var! "Tənqid – ədəbiyyata məhəbbətin adıdır"

– müəllifin özünün tənqid barədə belə anlayışının – sənətə və sənətkar həqiqətinə güzəştsiz tənqidçi məhəbbətinin əyani təsdiqini onun həm ayrılıqda hər məqaləsində, həm də bütünlükdə tənqidi düşüncəsinin tərzində, üsulunda hiss etməmək mümkün deyil.

Yaşar Qarayev bədii mədəniyyətimizin ən müxtəlif sahələrinə nüfuzu ilə diqqəti cəlb edir. Ancaq aydın məsələdir ki, yaradıcılıqla məşğul olduğu müddətdə onun elmi axtarışlarının başlıca istiqaməti Azərbaycan realizminin tarixini öyrənməyə yönəldilmişdi: bunun barı-bəhrəsi “Realizm: sənət və həqiqət” kimi siqlətli bir monoqrafiya oldu. Bu əsər ədəbi mərhələləri bütün keçidləri, axın və zirvələşmə çağları ilə, bir-biri ilə yanaşı və bir-birinə rəvacvermə xüsusiyyətləri ilə birlikdə, dialektik şəkildə tədqiq etməyin ədəbiyyatşünaslıqda ən qiymətli elmi tendensiyalarından birini əsaslandırmış oldu. Bu əsərdən sonra klassikləri daha yaxşı tanıdıq, bədii metodlarına daha dərindən bələd olduq, bədii fikrimizin ümumi inkişaf ahəngini daha aydınlığı ilə görə və qavraya bildik. Yaşar Qarayev göstərdi ki, indiki dövrdə nəinki sadəcə olaraq klassikləri yeni tərzdə şərh eləmək imkan daxilindədir, hətta klassikaya münasibətdə tamamilə yeni baxışı ifadə edən ədəbi-estetik mövqeyi irəli sürmək mümkündür və o mütləq lazımdır: bunsuz ədəbiyyat da, onun mehvərindəki nəzəriyyə də donuqlaşar və ehkamlaşar.

Yetmişinci illərin ortalarında Yaşar Qarayev xalis milli teatr problemləri ilə daha ardıcıl məşğul olurdu. Ancaq sonralar da bütün yaradıcılığı boyu Azərbaycan dramaturgiyasına verdiyi təhlillər elə dərin əsasa malikdir ki, rejissorlarımız o əsərləri tamaşaya qoyarkən, bu təhlillərsiz keçinə bilməzlər.

Nizami, Nəsimi, Füzuli, Vaqif, Sabir, Vurğun kimi poetik və fəlsəfi fikrin böyük dühaları Yaşar Qarayevi gəncliyindən düşündürüb. Onun tədqiqatçı idrakının bənzərsizliyi xüsusən Cavid yaradıcılığının problemlərinə həsr etdiyi əsərlərdə aydınca duyulur, mütəfəkkir sənətkarın romantik poeziyası üzərindəki düşüncələrində fəlsəfi qat qabarıqlaşır.

Müasir Azərbaycan tənqidi fikrinin inkişafı da, öz həmkarları ilə yanaşı, heç şübhəsiz, həm də Yaşar Qarayevin adı ilə bağlıdır. Pənah Xəlilov, Bəkir Nəbiyev, Şamil Salmanov, Akif Hüseynov və digər tənqidçilərimiz arasında o, öz fərdi ədəbi üslubu ilə aydınca seçilir.

Yaşar Qarayev – müasir ədəbi hadisələri proses halında alan, ədəbi inkişafın qanunauyğunluqlarını, perspektivlərini, problem qaynaqlarını müəyyənləşdirməyi bacaran, oxucuya əsərin mahiyyətinin dərki üçün açar verən, qərəzkar subyektivlikdən və səthi-liberal obyektivlikdən tamamilə uzaq olan, tənqid sənətinə oxucuda sevgi, məftunluq yaradan analitikdir.

Yaşar Qarayev miniatür tənqidi araşdırmalarından tutmuş monumental tədqiqatlarınadək bütün təhlillərində ədəbi-estetik fikrin ən sabit, cilalı anlayış və ölçülərini ədəbiyyatın, sənət dünyasının yaşarı, qaynar zəminində yenidən sınaqdan keçirir və onlar təzə, hələ də nəzəri cəlb etməmiş xassələri ilə yenidən üzə çıxırlar. Burada biz, onun zamanın gərginliyi ilə tən gələn tarıma çəkilmiş dil və üslubunun itiliyini, təravətini və gözəlliyini duyuruq!

Görkəmli alimin yaradıcılığı bizim ictimai-mədəni-ədəbi fikrimizdə qırılmaz mənəvi irsiliyi – estafeti ifadə edən nümunədir: o, nəinki bu günlə yaxın keçmişin, həm də gələcəyin – sabahkı ədəbi prosesin arasındakı möhkəm varisliyi təsəvvür etməyə imkan verir.

Professor Yaşar Qarayev son onilliklərdə bütövlükdə Milli Düşüncənin İnkişafını ardıcıl konseptual tutarda izləyə və təhlil edə bilmiş, Bəxtiyar Vahabzadə, Ziya Bünyadov, Xəlil Rza Ulutürk, Məmməd Araz, Anar, Elçin, Aydın Məmmədov, Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Yaqub Mahmudov, Kamal Abdulla, Rafael Hüseynov ilə bir sırada müstəqillik dövrü mənəviyyatının yaradıcılarından olmuşdur. Mülayim və təmkinli professor siyasi hadisələrin düyününə girməyib, ancaq onun okeandibi təlatümləri andıran fırtınalı yaradıcılığında milli ruhun təkamülü bütün qabarıqlığı ilə əks olunmuşdur. Yaşar Qarayev Akademiya Hücrəsindən Azərbaycanda gedən proseslərə dəqiq, aydın, sərrast və rasional qiymətlərini vermişdir. Yaşar Qarayevin elmi yaradıcılığının baş “qəhrəmanı” – həyatda və sənətdə Azərbaycan mayasından yoğrulan milli

şəxsiyyətdir. İctimai-siyasi münasibətlər içrə Milli Şəxsiyyətin formalaşması, etik-psixoloji yetkinləşməsi, cəmiyyətin üst qatına çıxaraq hakim elitaya çevrilməsi – onun ağrılı və ziddiyyətli təkamülünün mərhələləridir.

Yaşar Qarayev Azərbaycan mədəniyyətinin fundamental şəkildə və universal humanitar əsaslarda araşdırılmasının elmi təməlini qoyanlardan biridir. Alimin tədqiqatlarında Azərbaycan mədəniyyəti özünün orqanik bütövlüyündə götürülür, etnik yaddaş, folklor, dulusçuluq və Şəki lətifəsindən tutmuş tragikomediyalarımızadək (səhnədə və həyatda!) çeşidli mədəniyyət fenomenləri vahid milli ruhun ayrı-ayrı zaman laylarında təcəllası kimi özünün soydoğmalığında və ən ağlasığmaz bağlılığında araşdırılır. Bu tədqiqatlardan Azərbaycan mədəniyyəti canlı bir orqanizm yaşarılığında, doğarılığında və gələcəkliyində göz önünə gəlir. Ötən zamanların və xüsusilə son yüz ilin Azərbaycan mədəniyyətində əks olunan bütün əsas izləri və yapqıları Yaşar Qarayevin poeziya qədər duyarlı elmi tədqiqatlarında sistemli-konseptual təhlilini tapıb. Bundan sonra Azərbaycan mədəniyyətini ayrılıqda və onu bəşər mədəniyyətinin tərkib hissəsi kimi tədqiq etmək istəyən hər hansı araşdırıcı üçün Yaşar Qarayevin əsərləri ən tutarlı mənbələrdəndir. Milli mədəniyyətimizin ruhunu duymaq istəyən hər kəs üçünsə Yaşar Qarayev yaradıcılığı misilsiz örnəkdir.

Yaşar Qarayev üçün daşlaşmış fikir, nəzəriyyə ehkamı yox idi. Onu fikir haqqında fikir də düşündürürdü. Düşünürdü ki, fikir həqiqəti, sənətə münasibət vara bildiyi son həddə qədər cilalansın. Büllurunu sunsun. Düzənlərdə yurd salmayan, dağın dibindən, içindən təpəsinədək torpaq-daş laylarını yara-yara, qıvrıla-qıvrıla yüksəlib oradan, özü də ən xəlvət, ən məhrəm bir nöqtədən sızıban daşarlanan bulaq suyu kimi…

Yaşar Qarayev ömrünün sonunadək tənqidçi olaraq qaldı – ədəbiyyatdan mədəniyyətin bütün budaqlarına təfəkkür enerjisi axıdan, bədii sözü və ideyanı tam harmoniyasında aydınladan, estetik-fəlsəfi düşüncənin Azərbaycan türkcəsində ən dəqiq, dolğun və sərrast ifadəsinin misilsiz sənətkarlığını yaradan, Azərbaycan mənəviyyatını parçalanmaz və bütöv görən və təqdim edən düşünər… Yaşar Qarayevdə fikir-cümlə, ideya-cümlə ehram şəkillidir. Bünövrəsində möhkəm, torpağa dayalı, zirvələndikcə şüşlənən, içəri kaha-labirintləri də ən pünhan hikmət və mənalara uzalı. Fikir – bir neçə qatında, layında, gözlənilməz gedişlərində meydana çıxır. Ancaq bütün gözlənilməzliklərində, paradoksallığında son dərəcə məntiqli, inandırıcı. Sanki min illərin sınağında yoğrulurmuş kimi, zindanında döyülürmüş kimi. İncə və cazibədar. Qanadlı və hədəfdənyayınmaz. Bütün törəmələrində gövdəli. Ulusundan törəsinəcən bütün yolu görürmüş kimi. Elitar türkcənin şedevri. Milli mənəviyyatımızın ərdəm görüntüsü. Daim dönüləcək, üz tutulacaq görkü.

Yaşar Qarayevin çap olunmuş son kitabına – “Min ilin sonu”na daxil edilən əsərləri – “XXI əsr: qlobal sivilizasiya və Şərq dəyərləri”, “Milli “Mən” şüuru və etnik yaddaş – Azərbaycançılıq”, “Ədəbiyyat tarixi milli (etnik) kimlik və mentalitet tarixi kimi”, “Məsləkim tərcümeyi-halımdır”, “Həpimiz bir günəşin zərrəsiyiz”, “İntellektin bədii yaddaşı” elmi, fəlsəfi, bədii, estetik, həm də qlobal siyasi düşüncənin, planetar narahatlığın küll enerjisi ilə ortaya qoyulmuş klassik nümunələrdir. Bu əsərlərində Yaşar Qarayev Azərbaycanın milli kimlik və mentalitet dəyərləri, bütöv (tarixi və çağdaş) mədəniyyət kompleksi ilə dünyada özgür qərar tutmasının fəlsəfi-ideoloji platformasını irəli sürmüşdür.

Alimin “Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər” əsərinin son sözü – “Ədəbiyyat üçüncü minilin astanasında” – ötən tarixlə Yeni Çağ mədəniyyətinin genetik vəhdətini təyin edən strateji baxış və nəzəriyyənin orijinal təsbitidir. Əsrləri və minillikləri qovuşduran onillik dönəmi Yaşar Qarayev bu vəhdətin qaynaq mərhələsi kimi şərh edir: “Son dövrü – 1990-2000-ci illər arasındakı zaman zolağını həm ədəbiyyatda, həm də tənqiddə bugünkü tarixi finala gətirib çıxaran qanunauyğunluq və məntiqdən kənarda hesab etmək olmaz: siyasətdə də, ideologiyada da bilavasitə bugünkü mərhələnin astanası məhz bu dövrün sosial, ictimai və ədəbi hadisələri idi.” Əgər “XXI əsrin

dünyasını sintez sivilizasiyası kimi yaratmaqdan söhbət gedirsə", deməli, bu prosesdə iştirak etməli olan Şərq, eləcə də Azərbaycan da öz klassik dəyərlər panteonu üzərində qurulmalı və yüksəlməyi bacarmalıdır. Bu özül olmadan hər hansı bir mədəniyyət qarşılıqlı təcrübə və rəqabət prosesində asanlıqla çıxdaş ola bilər.

Bütün yüksək elmi nailiyyətlərinə baxmayaraq, görkəmli alimi yalnız dünyadan köçdüyü ildə (2002) Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçmişdilər! Bununla bağlı, Yaşar Qarayevin övladı, hazırda Böyük Britaniyada yaşayan Dr. Lalə Yaşarqızı yazır: "Səksəninci illərin sonunda akademikliyə seçkilər zamanı ona qarşı edilən, sözün həqiqi mənasında, misilsiz haqsızlıq zamanı da susdu… Sonrakı illər heç namizədliyinin irəli sürülməsini də istəmirdi. 1998-ci ildə ona yenidən veriləcək Akademiyaya müxbir üzvlük adından yazılı şəkildə imtina da etmişdi. Yaşar Qarayev üçün xalqının istedadlı oğlu kimi tanınmaq, bir alim kimi vətəninin etimadını qazanmaq ona veriləcək və əslində, keçmiş sovet ölkələri sərhədindən kənarda mövcud olmayan bir addan dəfələrlə üstün idi" (Yaşar Qarayev: yaxından və uzaqdan. Məqalələr, xatirələr. Bakı: Sabah, 2016, s.383).

Ulu Azərbaycan mədəniyyətinin yetirməsi Yaşar Qarayev özünəməxsus əxlaqi siması, həzinliyində təlatümləri eşitdirən nitqi, örnək davranışı ilə saf bir kişi, uca mənəviyyat daşıyıcısı idi! Uzun illər Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutuna rəhbərlik etmiş Yaşar Qarayevin kabinetindəki masanın üzərində kiçicik bir lövhə vardı: "Vaxt – sərvətdir". Bu yazı incə bir işarə ilə anladır, eyham vururdu ki, Ədəbiyyat İnstitutu – kargüzarlıqla və ya mətləbdən uzaq söhbətlərlə baş qatılası bir yer deyil, yaradıcı məkandır, elm məbədidir! Onun heyrətamiz dərəcədə həssaslığı, zərifliyi ilə əqidə dönməzliyi arasındakı tarazlığı xarakterindən əsərlərinə, əsərlərindən xarakterinə dalğa-dalğa nüfuz edirdi. Yüksək əqidə sahibliyi və dürüstlüyü ilə, Azərbaycan intellektinə inamı ilə ali məktəbdə imtahan komissiyalarına rəhbərlik edərkən, Alim böyük bir "qazanc da güdürdü": istedadlı tələbələri elə o vaxtdan "gözaltı" edir, Akademiyaya – Ədəbiyyat İnstitutuna gətirirdi!

Yaşar Qarayev, çoxsaylı yetirmələri arasında mənim də ilk dissertasiyamın təkcə elmi rəhbəri deyil, həm də Ustadımdır! Qürur duyuram ki, o böyük Alimin yetmişinci illərdən ömrünün sonunadək yazdığı bütün kitabları sanki hər hərfinə məna verdiyi kalliqrafik avtoqrafları ilə mənim sərvətimdir! Yaşar Qarayevin parlaq ideyaları mədəniyyətimizin bütün inkişaf mərhələlərini bir-birinə bağlayan və onu gələcəyə bütövlüyündə, yaradıcı enerjisində daşıyan qaynaq kimi hər zaman millətimizin və elmimizin gərəyi olacaq![1]

[1] https://daha.az/yasar-qarayev-yaxindan-v%c9%99-uzaqdan-rahid-ulusel/

## Yaşar Qarayev fenomeni...

Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Yaşar Qarayevlə ilk tanışlığım 1986-cı ilin Novruz bayramı ərəfəsinə təsadüf edir. Nizami adlı bir tanışım Nizami adına Ədəbiyyat İnstitutunun direktor müavini Yaşar Qarayevlə məni şəxsən görüşdürmək, tanış etmək istədiyini bildirdi. Məmnuniyyətlə razı oldum. Ertəsi gün Yaşar müəllimin kabinetində görüşdük. Salam-kəlamdan sonra mənə ilk sualı belə oldu: Yazılarından mətbuatda çap olunanı varmı? Bəli – dedim. C.Cabbarlının kitablarına salınmış üç felyetonun ədibə aid olmadığını isbatlamağa çalışdığım "Cabbarlının "məqalələri" adlı yazım 29 noyabr 1985-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilib. Digərlərini də sadalamağa hazırlaşanda məni dayandırdı və təəccüblə yenə sual verdi: O məqaləni sən yazmısan?!

Dörd ay əvvəl çap olunmuş məqaləmin Yaşar müəllimin yaddaşında qalması məni çox sevindirdi və astaca sualını təsdiqlədim. Azacıq fikrə getdi və sonra üzünü mənə tutaraq dedi: Asif, belə yazılardan nə qədər çox yazsan Ədəbiyyat İnstitutuna gəlişin də bir o qədər qısalacaqdır.

Müdrik deyim idi. Əslində işə qəbulun kəsə yolunun yaradıcılıqdan, sanballı elmi məqalələrdən keçdiyini nişan verirdi. Doğrusu bu yol o qədər də asan və kəsə deyildi. Mən isə daha konkret vədə ümidli idim...

Bir neçə aydan sonra Yaşar müəllim institutun direktor vəzifəsini icra edən, ardınca isə direktor təyin edildi. İşə ilk qəbul müsabiqə yolu ilə oldu. Komissiya üzvləri "Baş laborant" vəzifəsini tutmaq istəyənləri sual atəşinə tuturdular. Müsabiqə bitdikdən sonra nəticəni həyəcanla gözlədiyimiz dəqiqələrdə məni ilk təbrik edən də Yaşar müəllim olmuşdur.

Beləliklə, 1988-ci il 18 yanvar tarixindən Yaşar Qarayevin əmri ilə Ədəbiyyat İnstitutunda fəaliyyətə başladım. Yaşar müəllim çox müdrik, mədəni, təmkinli, xeyirxah, təmənnasız şəxsiyyət idi. Azərbaycan ədəbiyyatını ən qədim dövrdən çağdaş günümüzədək bütün mərhələlərini mükəmməl bilirdi. Folklorumuzu çox sevirdi. Yaşar Qarayev tənqidi – poetik tənqid idi. Başqa sözlə poetik tənqidimizin banisi Yaşar Qarayev idi. Nitqi mükəmməl, rəvan və obrazlı olardı. Cümlələrində daxili qafiyə, bənzətmə bolluq təşkil edərdi. Ən sərt fikri - cazibədar, metaforik libasda təqdim etməyi bacarırdı. Yanına gələnlərin diqqətini ilk cəlb edən kəlam masasının üstündə, şəffaf lövhədə yazılmış "Vaxt sərvətdir!" deyimi idi.

14 il onun rəhbərliyi altında işlədim. Yaşar müəllimi həyatımda direktor olmaqdan daha çox böyük qardaş kimi görürdüm. O layiq olanlara heç bir vaxt sevgi və qayğı payını əsirgəmirdi. 1989-cu ildə yenicə işıq üzü görmüş "Meyar şəxsiyyətdir" kitabını avtoqrafla mənə bağışladı. Avtoqrafda yazırdı: "Daxili – mənəvi mədəniyyətinə böyük hörmət etdiyim, elmi gələcəyinə inandığım, ümid bəslədiyim əziz Asifə! Mən bütün elmi gəncliyimizi belə sadə, belə zəhmətkeş görmək istərdim, Asif!

Yaşar. 14 mart 1989"

Yaşar müəllimlə bağlı saysız-hesabsız xoş xatirələr yaddaşımda yaşayır. 1990-cı ildə İçəri Şəhərdə yaratdığı Folklor Elmi-Mədəni mərkəzinə (İndiki Folklor İnstitutuna) məni direktor təyin etdi. Onun təşkilatçılığı və rəhbərliyi ilə 1991-ci ilin aprel-may aylarında Ankarada beynəlxalq simpoziumda məruzə etdim. İlk kitabıma (1992) ön sözü də o yazıb. 1994-cü ilin sentyabr ayında Yaşar müəllimin təşəbbüsü ilə İraqa gedən nümayəndə heyətinin tərkibinə mən də daxil edilmişdim və s.

Yaşar Qarayev 27 yaşında namizədlik, 43 yaşında doktorluq müdafiə etmiş, 44 yaşında Dövlət mükafatı laureatı, 46 yaşında əməkdar elm xadimi idi. Onun rəhbərliyi ilə İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Şirindil Alışanlı, Nizaməddin Şəmsizadə, Rəhim Əliyev, Məhərrəm Qasımlı, Aydın Dadaşov, Tahirə Məmməd, İsfəndiyar Vahabzadə, Məryəm Əlizadə, Rüstəm Kamal, İsrafil İsrafilov, İsmayıl Vəliyev, İlham Rəhimli, Rahid Ulusel, Əziz Ələkbərli, Xatirə Quliyeva və b. görkəmli alimlər yetişmişdir.

1998-ci ildə akademiklər Firudin Köçərli və Bəkir Nəbiyev əməkdar elm xadimi Yaşar Qarayevin AMEA-nın müxbir üzvlüyünə namizədliyini irəli sürürlər... lakin... baş tutmur. O, dörd il sonra, 2002-ci ildə, vəfatından bir neçə ay əvvəl AMEA-nın müxbir üzvü seçilir...

Yaşar müəllim Qarabağa sıx bağlı insan idi, Qarabağ ağrısını-acısını ürəyində daşıyırdı. O, 2000-ci ilə infaktla daxil oldu. Jurnalist təskinlik üçün infaktı “ziyalı xəstəliyi” adlandıranda Yaşar müəllim incə bir şəkildə onun sözünə düzəliş verərək bu epidemiyanın “cəmiyyətin bütün təbəqələri, zümrələri miqyasında yayıldığını” vurğulayaraq əlacı haqqında demişdir: “Cərrah əlcəyini əlinə Prezident geysin gərək. Skalpeli Ali Baş Komandan tutsun gərək, özü də baş əməliyyat, əsas cərrahiyyə ... Qarabağda aparılsın gərək. Yoxsa nə qədər ki, millətçi, şovinist külçədən qopan radiasiyalı qəlpə Azərbaycanın Qarabağ adlı ürəyində - yarada yaşayır və fəsad verir, qanda və nəbzdə artimiya, damarda və sinirdə metastaz ara verməyəcək.”

2002-ci ilin yayında daha bəd xəstəlik Yaşar müəllimin yaxasından yapışdı. İnstituta rəhbərliyi Teymur Kərimliyə tapşıraraq məzunuyyətə (müalicəyə) getdi. Heç kəs inanmazdı ki, o yenidən işə qayıtmayacaq... 2002-ci il 25 avqust, səhər saat 6-da telefonuma zəng gəldi. Zəng edən Yaşar müəllimin həyat yoldaşı Esmira xanım idi. Boğuq səslə Yaşar müəllimin vəfat etdiyini bildirdi... Mərkəzi Klinikanın Reanimasiya otağında Yaşar müəllim tək idi. Uzun müddət yuxusuzluqdan əzab çəkən dahi şəxsiyyət elə bil yuxuya getmişdi... elə bil zamansızlıq uyğusuna qovuşmuşdu...[2]

***Professor Asif Rüstəmli***
***Bakı, 25.08.2020.***

---

[2] https://moderator.az/cemiyyet/392510/yasar-qarayev-fenomeni/

## Ədəbiyyat filosofu

XX əsr bizdən uzaqlaşdıqca bu mürəkkəb və ziddiyyətli epoxada yetişən, milli-mənəvi tərəqqidə yeri və sanbalı olan şəxsiyyətləri dəyərləndirməyin meyarları bəzi məqamlarda subyektiv müdaxilə ilə müşayiət olunan süni şişirtmə, yersiz və əsassız qiymətlərlə “zəngin” olsa da, həqiqi elmin və onun təmsilçilərinin yeri daha çox görünməkdədir. Xüsusən humanitar fikrin son iyirmi ildə yenidən qurulma uğrunda təşəbbüsləri çox hallarda “şüardan”, populist mülahizələrdən uzağa getmədiyi elmi mühitdə Yaşar Qarayev kimi nadir istedada malik mütəfəkkir alimin elm və əxlaq dərslərinə qayıtmaq, öyrənmək, bu sərvətin ənənələrini qorumaq zərurətə çevrilir.

Yaşar müəllim XX əsr Azərbaycan tənqidi, ədəbiyyatşünaslığı və estetik fikrini, daha dəqiq desək, humanitar düşüncəsini yeni istiqamətə yönəltdi, yeni mərhələnin əsasını qoydu və bu mərhələni özü və çoxsaylı yetirmələri tarixi reallığa çevirdilər. Milli ictimai fikrimizdə, elmi vicdan və əxlaqımızda, yüksək ziyalı ünsiyyətində bənzərsiz intellekti ilə dərhal seçilən Yaşar Qarayev fenomeni hələ uzun illər öyrəniləcək.

Onu “ədəbiyyat filosofu”, “tənqidimizin şairi”, “elmimizin möcüzəsi” kimi epitetlərlə qiymətləndirənlər yanılmırlar. Yaşar Qarayevin zəngin irsini öyrənən hər bir tədqiqatçı, ədəbiyyat və sənət adamı daha dərinə getdikcə ona məxsus qeyri-adi məqamlarla çox rastlaşacaq.

Öz erudisiyası, elmi fəhmi, nadir təhlil üsulu ilə seçilən, respublikada humanitar fikrə istiqamət verən bir alim və ictimai xadim kimi Yaşar müəllim təvazökarlıq mücəssəməsi idi. O, XX əsrin ikinci yarısı, başqa sözlə, yarım əsrdən artıq bir vaxtda humanitar fikrin elmi-metodoloji sərhədlərini müəyyənləşdirdi.

Yaşar Qarayev imzası humanitar fikrimizin əsas istiqamətlərini əhatə edir: ədəbiyyatşünaslıq, ədəbi tənqid, ədəbiyyat tarixçiliyi, teatrşünaslıq, estetika və nəhayət, humanitar elmlərin nəzəri-metodoloji problemləri.

Yaşar Qarayev ədəbiyyat, sənət, elm aləminə 50-ci illərdə, ictimai-siyasi mühitin mülayimləşdiyi bir zamanda qədəm qoymuşdu. 1953-1958-ci illər universitetin filologiya fakültəsində təhsil aldığı qrup Azərbaycan elminə, ədəbiyyatına Tofiq Hacıyev, Hüseyn Kürdoğlu, Ağacavad Əlizadə, Şamil Salmanov, Arif Səfiyev, Həmid Abbas, İbrahim Göyçaylı, Firidun Ağayev, Cəfər Cəfərov, Vaqif Hüseynov kimi adlar bəxş etmişdi.

Yaşar Qarayev universitet auditoriyasından akademiyaya artıq püxtələşmiş bir tənqidçi kimi gəlmişdi. Onun ilk məqalələri Azərbaycan dramaturgiyasının tarixi və müasir problemlərinə həsr olunmuşdu. Ədəbi prosesə Yaşar Qarayev 60-cı illərdə teatr tənqidçisi kimi daxil olur və onun Azərbaycan milli teatrının ən görkəmli tamaşaları haqqında dövri mətbuatda məqalələri çapdan çıxır. Tezliklə Yaşar Qarayev Azərbaycanda XX əsrin ən görkəmli teatr tənqidçisi və dramaturgiya mütəxəssisi kimi təsdiq edilir. O, dramaturgiya və teatr nəzəriyyəsini mükəmməl bilirdi və “Azərbaycan ədəbiyyatında faciə janrı” adlı ilk monoqrafiyası yeni tipli tədqiqat idi. Bu monoqrafiya bizim elmi fikrimizə faciə haqqında mövcud nəzəri konsepsiyaları gətirdi, bu janrın yaranmasını şərtləndirən ictimai, fəlsəfi və ədəbi-bədii amillər, həmçinin faciənin quruluşu və tipologiyası araşdırıldı. Azərbaycan teatrı və dramaturgiyasının məktəblər statusunda formalaşması, varis-irs əlaqələri Y.Qarayevin teatr və dramaturgiya haqqındakı məqalələrində reallaşdırılan konsepsiya idi.

Yaşar Qarayevin XX əsr ədəbiyyatşünaslığında böyük xidməti onun nəzəriyyə sahəsindəki araşdırmaları, xüsusən yaradıcılıq metodu kateqoriyasının tədqiqindəki fundamental əsərləridir. Yaşar müəllimin bədii metod sahəsindəki araşdırmaları yeni dövr ədəbiyyatımızı şərtləndirən ictimai, bədii-fəlsəfi amillər fonunda aparılır, bir növ XIX-XX əsrlər ədəbiyyatı universal bir kateqoriyanın tarixi inkişaf prosesi fonunda təhlil edilir. Realizmin daxili tipologiyası və tarixi təkamül prosesi, bir metoddan digərinə keçidin bədii materialda reallaşması onun ədəbiyyat tarixini ədəbiyyatın nəzəri tarixi kimi öyrənməyin başlanğıcına çevrilirdi.

Alimin "Realizm: sənət və həqiqət əsəri" XX əsr Azərbaycan ədəbi-nəzəri fikrinin ən sanballı nümunələrindən biridir. Bu əsər Azərbaycan ədəbiyyatşünaslığında yeni bir mərhələni müəyyənləşdirməklə sübut etdi ki, bədii metodun bütöv estetik kateqoriya kimi hərtərəfli nəzəri şərhi regional və milli bədii düşüncənin nailiyyətlərini vəhdətdə, qarşılıqlı əlaqədə götürməyi tələb edir. O, Azərbaycan realizminin dünya ədəbiyyatında realizmin inkişaf qanunauyğunluqları ilə əlaqəsini aydınlaşdırır, bu realizmin rus və Avropa realist sənəti kontekstində təhlilini aparırdı.

Tənqid tariximizi ardıcıl araşdırmış, ədəbiyyatşünaslığımızın və tənqidimizin nəzəri-metodoloji inkişaf mərhələlərini dərindən öyrənib, onun ümumi problemləri ilə yanaşı, böyük simaları haqqında monoqrafiya və ya portret, məqalələr yazmış Yaşar Qarayevdə parlaq tənqidçilik istedadı var idi. Onun estetik zövqü, ədəbi faktı, nümunəni bədii fikir tarixi fonunda qiymətləndirmək istedadı ancaq heyrət doğurur. Ədəbiyyatımızın elə sanballı nümunəsi yoxdur ki, Yaşar Qarayevin diqqətindən kənarda qalsın. Onun tənqidçi-estetik tipi, adətən, ideoloq tipinə üstün gəlirdi. Milli mənəviyyat tarixinə yanaşmada tarixin vətəndaşlıq tutumu, onun müasir siyasi-ictimai mənası Yaşar müəllim üçün həmişə önəmli idi. O, 90-cı illərdə ədəbi-bədii dəyərlərimizi siyasi müstəqilliyin kontekstində götürürdü və metodoloji imkanları çərçivəsində ümumiləşdirmələr aparırdı.

Yaşar müəllim 90-cı illərdə ədəbiyyatşünaslığımızda iki məsələni xüsusi qabartdı. Uzun illər yasaq edilmiş ortaq türk, müsəlman mənəvi dəyərlərini və mühacirət ədəbiyyatını ədəbi-ictimai dövriyyəyə gətirməkdə onun bir alim, elm təşkilatçısı kimi müstəsna xidmətləri vardır. "Dədə Qorqud-1300", Füzulinin 500 illik yubiley tədbirləri, mühacirət ədəbiyyatı simpoziumu çərçivəsində fəaliyyəti həm ədəbi-elmi fikrimizi zənginləşdirməyə xidmət etdi, həm də müstəqil Azərbaycanı dünyada tanıtmağın, sevdirməyin vasitəsinə çevrilirdi. Yaşar müəllim "Tarix: yaxından və uzaqdan" kitabında mövcud tədqiqatlarını yeni metodoloji axtarışlar kontekstində birləşdirir, ortaq İslam və türk dəyərləri, onların şərtləndirdiyi bədii-estetik amillər fonunda ədəbiyyat tarixinə nəzər salırdı. XX əsr ədəbiyyatşünaslığında mövcud olan nəzəri istiqamətləri milli ədəbiyyatşünaslığa gətirən, onu milli ədəbi təcrübə ilə uyuşan və fərqli cəhətlərini ayırd edən Yaşar Qarayev ədəbi fikri dövrləşdirmədə dominant olan formasiyalar nəzəriyyəsinin böhran keçirdiyi, iflasa uğradığı məqamda milli ədəbiyyat tarixi konsepsiyası ətrafında düşünən, orijinal tezislərini irəli sürən müəlliflərdən idi. XX əsr ədəbi-nəzəri fikrimizin yekunu kimi yaranmış bu əsər ümumən humanitar fikrin ciddi metodoloji problemlər qarşısında dayandığını ortaya qoydu.

"Tarix: yaxından və uzaqdan" əsərini yeni metodoloji prinsiplərlə yazılmış ədəbiyyat tarixi də adlandırmaq olar. Kitabda yeni ədəbiyyat tarixi yaratmağın nəzəri eskizləri ilə yanaşı, bu tarixi, onun ədəbi-estetik və ictimai-fəlsəfi mərhələlərini, bədii-poetik keçidlərini izləməyə imkan verən məqamlar, müşahidələr və ümumiləşdirmələr yer alır. Klassik irsi yenidən dəyərləndirməyin, onun sözü ilə desək, ilk layihəsi, eskizi - elmi-fəlsəfi bir ehtirasla şərh olunan bu kitab yeni tipli ədəbiyyatşünaslığa keçidin əsasını qoymuşdur. Yaşar müəllimin nəzəri qənaətləri tarixi və müasir ədəbi prosesin aparıcı yaradıcılıq istiqamətləri, tapıntı və ədəbi kəşfləri zəminində meydana çıxırdı.

Ədəbiyyat filosofu (Yaşar Qarayev-80)Yaşar Qarayev Nizami adına Ədəbiyyat İnstitutuna rəhbərlik etdiyi illərdə bu qurum böyük beynəlxalq nüfuz qazandı. Onun təşkilatçılığı ilə keçirilən beynəlxalq simpoziumlar və digər formalarda həyata keçirilən tədbirlər bizim ədəbi-mədəni fikrimizi fakt, sənəd baxımından zənginləşdirdiyi kimi, qonşu, qardaş ölkələrin ədəbiyyatlarının elmi-metodoloji cəhətdən inkişafına da böyük təsir etdi.

Yaşar müəllim xarakter etibarilə romantik idi və onun iş üslubunda da bunu görürdük. Bu romantikanın böyük bəhrələrinin şahidiyik. Folklorumuzun toplanması, tədqiqi və nəşri ilə bağlı 1980-ci illərdə keçirdiyi elmi şura və sessiyalar bu gün Folklor İnstitutu kimi bir qurumun yaranması ilə nəticələndi. Bu institutun yerləşdiyi binanın alınmasından, onun elmi strukturunun və perspektiv planlarının tərtibinə qədər hər şey məhz Yaşar Qarayevin inadlı vətəndaş fəaliyyətinin bəhrəsidir.

Yasaq edilmiş milli-mənəvi dəyərlərimizin nəşrində xüsusi xidmətləri olmuş və bu gün də fəaliyyətlərini davam etdirən “Sabah” və “Ozan” nəşriyyatlarının da yaranmasında, fəaliyyətində Yaşar müəllimin təmənnasız xidmətlərini unutmaq olmaz.

Onun elmi kadrlar hazırlamaq sahəsindəki böyük xidmətləri haqqında real təsəvvür yaratmaq üçün humanitar elmlər sahəsində, sözün həqiqi mənasında, yetirdiyi görkəmli alimlərdən bəzilərinin adını çəkməklə kifayətlənirəm: Mürşüd Məmmədli, Rəhim Əliyev, Nizaməddin Babayev, İlham Rəhimli, Hüseyn İsmayılov, İsmayıl Vəliyev, Məryəm Əlizadə, İsrafil İsrafilov, Tahirə Məmməd, Cəlal Qasımov, Hüseyn Haşımov, Rahid Xəlilov, Tehran Əlişanoğlu, Aydın Dadaşov, Akif Məhərrəmov, Əziz Ələkbərov və onlarca başqaları. Bu adlar, onların məşğul olduqları elmi istiqamətlər Yaşar Qarayev məktəbinin vüsəti haqqında çox şey deyir.

Yaşar müəllim mənim tanıdığım nadir şəxsiyyətlərdən idi ki, elmi və həyati vərdişləri eyni üslubda, eyni biçimdə idi. O necə düşünürdüsə elə də yazırdı, elə də danışırdı. Həyatın, məişətin adiliklərində də gözəllik, zəriflik görürdü. Hamımızın müşahidə etdiyimiz görüntülərdə heç kimin gözləmədiyi bir məna, əxlaqi-ictimai tutum tapırdı. Onun şifahi və yazılı nitqi fərqlənmədiyi kimi yerişi, duruşu da heç kimə bənzəmirdi.

Yaşar müəllimin bənzərsiz təfəkkür tərzi onun rəsmi görüşlərdə, qəbullarda və dost məclislərindəki çıxışlarına, avtoqraflarının məzmununa heyrətamiz bir fərdilik bəxş edirdi. “Elm və həyat” jurnalının 40 illiyi münasibəti ilə yazdığı təbrikdən bir fraqment: “Sellər-sular axdı, tarixlər, zamanlar bir-birinə qarışdı, qəzanın qatarı, Marksın, Leninin karvanı dayandı, əkinçi proletardan, oraq-çəkicdən ayrı düşdü, amma körpü çaydan - elm həyatdan, “Elm və həyat” oxucudan ayrı düşmədi”.

Yaşar müəllim son kitabları ilə XX əsr ədəbiyyatşünaslığına yekun vurdu və yeni milli ədəbiyyat elminin əsasını qoydu. “Tarix: yaxından və uzaqdan” kitabı ilə ədəbiyyatın nəzəri tarixini yaratmağın mükəmməl nümunəsini ortaya qoydu. “Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər” kitabının ilk nüsxəsi ilə ölüm yatağında tanış oldu, həcm və məzmun etibarilə bu sanballı kitabı əlində saxlamağa fiziki gücü çatmadı. Yaşar müəllimin sağlığında bu kitabı görməsi mənim və əməkdaşlarımızın mənəvi rahatlığı və təsəllisi oldu.

Zaman keçdikcə Yaşar müəllimin yeri daha çox görünür. Bənzərsiz söz, bənzərsiz iş üslubu, bənzərsiz ünsiyyət fəlsəfəsi. Bunlar üçün çox darıxmışıq. Onun hər əsərini yenidən oxuduqca görmədiyimiz, duymadığımız elmi və əxlaqi kamillik çalarlarının şahidi oluruq.

Yaşar müəllimin son kitabına müqəddimə yazmış, onu elmimizin möcüzəsi adlandırmış akademik Kamal Talıbzadənin aşağıdakı çox duyğulu sözləri hər bir namuslu Azərbaycan ziyalısının da hisslərini ifadə edir:

*“Ağlının, zəkasının bütün ruhunu yazdığı əsərlərinə köçürən Yaşar Qarayevin əbədiyyətə hicrəti, bütün xalqımız, xüsusən onu şəxsən tanıyanlar, şəxsiyyəti ilə təmasda olanlar üçün nə qədər ağır olsa da, əbədi ölümsüzlük səlahiyyətinin təsdiqidir. Böyük Ağlın gücü və əbədi Ruhun məsumluğunu özündə birləşdirən Yaşarın əsərləri bundan sonra da neçə-neçə alimlər nəslinə yol göstərəcəkdir”.*[3]

***Şirindil ALIŞANLI,***
***AMEA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri,***
***filologiya elmləri doktoru, professor.***

[3] https://elm.info.az/media/zirve/1090-dbiyyat-filosofu-yaar-qarayev-80.html